# 2. MƏQSƏDƏ DOĞRU İNAMLA

Hər bir insanın həyatı orijinal romandır. Əgər belə demək mümkünsə, həmin romanın ən maraqlı fəsilləri şəxsin uşaqlıq, yeniyetməlik, gənclik çağlarını əhatə edir. Sitarənin də həyat romanının uşaqlıq çağları haqqında, xüsusilə onun təbiətlə təmasda böyüdüyü çağları əhatə edən fəsilləri diqqətimizdən keçirdik.

Sitarə təbiət etibarilə saf qızdır. Onda qoynunda böyüdüyü təbiətin özündəngəlmə bir təbiilik var. Əsər boyu biz Sitarənin taleyini izlədikcə müşahidə edə bilirik ki, o hər hansı bir proses üçün plan qurmur, düstur hazırlamır. Sanki özünü bilərəkdən həyatın axarına buraxır. Ancaq bu, özünü həyatın axarına buraxmaq özbaşınalıq mahiyyəti daşımır. Baş verən hər hansı bir hadisə üçün məsuliyyət hissini, cavabdehlik missiyasını da yaddan çıxarmır.

Sitarənin taleyi heç də həmyaşıdlarından hansısa bir əlahiddə keyfiyyətinə görə fərqlənmir. O da digər həmyaşıdları kimi kənddə böyüyüb. Tərəkəmə həyatı yaşayan atanın, ananın ağır məişət yolunu keçib. Biz bir qədər əvvəldə kiçik yaşlı uşaq olarkən onun necə xəmir yoğurmağını, çörək salmağını... digər ev qayğılarını çəkməyini əsərdən gətirilmiş detallarla xatırlatdıq. İndi Sitarə böyüyüb. Orta məktəb pillələrini sürətlə keçməkdədir. Amma gərək unutmayaq ki, onun hələ yeniyetməlik çağında şəxsiyyətini formalaşdıran ağır sınaqlar dövrü onun uşaqlıq çağlarından keçmişdi.

Sitarə düşüncəli gəncdir. Anadangəlmə fitri istedad, qarşısıalınmaz oxu istəyində olan gəncdir.

**Burada bir haşiyə:** Əsərin ayrı-ayrı fəsilləri, xüsusilə gənclikdən qabaqkı çağların xatirə, düşüncələr motivi ilə yazılmış səhifələri ona görə bu qədər canlıdır ki, müəllif əsərə avtobioqrafik cizgiləri gətirməkdə xəsislik etmir. Çünki onun üçün əsas xammal öz həyatıdır. Həqiqətən, bədii əsər o vaxt canlı və şirin alınır ki, müəllif öz həyatını yaza bilir. O başqa məsələdir ki, bu həyatı o bəşəri səviyyəyə qaldıra bilir. Bu həyata ümumi cəmiyyət mənafeyi nəzərindən baxmaq imkanını reallaşdıra bilir.

Ulduz Qasımın doğulub-böyüdüyü kəndi - Mehdilini mən də yaxşı tanıyıram. Ən azı ona görə ki, Mehdilinin mənsub olduğu Cəbrayıl rayonunda doğulub böyümüşəm. Və uzun illər - işğala qədər Cəbayıl rayonunda çıxan *"Xudafərin"* qəzetində işləmişəm. İş missiyam mənə imkan verib ki, bütün rayonun ərazisini künc-bucağına qədər yaxşı tanıyım. Bunlar öz yerində. Hələ 4-cü sinifdə oxuyanda bizi - dağ kəndinin məktəblilərini aran kəndlərinə pambıq yığmağa gətirirdilər. 4-cü sinifin şagirdlərini çürümüş küləş döşənmiş anbarda yerləşdirmişdilər. Gecə çürümüş küləşin üstündə yatırdıq. Səhər duranda nəfəsimiz, boğazımız qapqara mazut ifraz edirdi. İçdiyimiz su da birbaşa lilli kanaldan götürülürdü. Bəli, Mehdili kəndinə pambıq yığmağa gəlməyimiz, bir ay təsvir elədiyim şəraitdə qalmağımız yaxşı yadımdadır. Bir ayın tamamına az qalmış uşaqların hamısı xəstələnməyə başladı. Bizi evlərə böldülər. Bir növ, mövsümün axırındakı iki-üç günü ayrı-ayrı evlərdə gecələdik. Kənd sakinlərinin qonaqpərvərliyi, bizə doğma münasibəti, hətta günorta yemək üçün bizə ərzaq payı ayırmaları... - hamısı yadımdadır.

Bəli, Ulduz da məhz belə bir yolu keçməli olur. Amma zaman dəyişdikcə insana münasibət də dəyişirdi. Daha beş-on il sonra uşaqları pambığa aparanda xüsusi diqqət göstərilirdi. Görünür, Ulduzun da kənd həyatı ilə bağlı düşüncələrində pambıq *"katorqa"*sının daha yumşalmış dövrü öz əksini tapır. Bir daha xatırlatmağa dəyər; pambıq "katorqa"sı ilə bağlı yaşı yüzü haqlamaqda olan Gülən nənənin əhvalatı mahiyyətcə dediklərimi təsdiq edir.

...Ulduz Qasım məktəbli dövrünü, xüsusilə bir məktəbli qızın ailədə keçən günlərini kifayət qədər canlı verə bilir. Biz onun məktəb həyatını müəyyən harmoniyada görə bilirik. Burada da ata obrazının kifayət qədər öz missiyasını necə yerinə yetirdiyini müşahidə etmək imkanımız olur. Uşaqların məktəbə, dərsə hazırlaşmağı, hətta onların səhər tezdən durub necə səliqə-səhmanla məktəb üçün yola çıxmaları, evdən məktəbəqədərki məsafənin təsviri, məsafənin dəmiryolu boyu keçməsi... bütün bunlar Ulduzun yaddaşından gələn motivlərdir.

...Və əsas odur ki, Ulduz hələ beşinci sinifdə oxuyanda belə əlinə qələm götürüb təəssüratını yazmağa başlayıb. Doğrudur, bu motivləri biz həm Sitarənin həyatı kimi oxuyuruq, həm də eyni zamanda Ulduzun öz həyatı kimi qavrayırıq. Sitarə - Ulduz hələ orta məktəbin aşağı siniflərindən başlayaraq sözlə ülfət bağlayıb, sözlə yaşamağı həyatın mənası hesab edib. Axır ki, yuxarı siniflərə gələndə öz məramını - məqsədini açıq bildirməli olur. Sitarə - Ulduz artıq rayon qəzetində imzası görünən müəllif idi. Onsuz da kənddə-kəsəkdə onu artıq yazıçı kimi, müxbir kimi yarızarafat-yarıgerçək bir ünvanla hər kəs qəbul etməkdə idi.

Ulduzun - Sitarənin həyat yolunun əhz bu mərhələsi əsərdə çox maraqlı, canlı - psixoloji düşüncələrlə öz əksini tapır: *"Mən Araz çayının sahili boyu uzanan bir kəndin jurnalist olmaq istəyən ilk qızı idim. Yox, elə o rayonda ilk jurnalist olmaq istəyən şəxsdim. Buna necə cəsarət etmişdim, necə qərar vermişdim bilmirəm. Axı bu vaxta qədər bizim kənddən böyük şəhərə ali təhsil dalınca gedən qızlar uzaqbaşı orta məktəb müəllimi olmağa, bu peşəni arzulamağa cəsarət etmişdilər. Mənsə kəndimizdən hələ heç bir oğlanın belə yaxın durmağa cəsarət etmədiyi bir peşəni arzulayırdım. Jurnalist olmağı qarşıma məqsəd qoymuşdum.*

*Bu o illər idi ki, "Jurnalistika" fakültəsi barədə əfsanələr gəzirdi. Hamı bir ağızdan deyirdi ki, bu fakültəyə pulsuz, rüşvətsiz qəbul olunmaq mümkün deyil. Jurnalistika prokuror, hakim, həkim, direktor övladlarının fakültəsi idi. Kənddən pulsuz-parasız gələn sadə bir qızın yeri deyildi. Onların inandığına görə...*

*Budur, indi kimi canı yandığından, kimi hünərimə, savadıma inanmadığından, kimi külli miqdarda rüşvətsiz bu işin alınacağına ümid etmədiyindən, kimi də sadəcə gizli həsəd hissinə görə məni yolumdan, fikrimdən daşındırmağa çalışırdı. Mən bütün uşaqlığı boyu ata, anasının bir dediyini iki etməyən, uşaqların ən üzüyolası, ən sakiti, ən sözə baxanı indi inad edirdim. Bu, elə bir qərar idi ki, onu dəyişməyimə kimsə mane ola bilməzdi. Kim idi, nə idi mənə güc verən? Oxuduqlarımmı? Bir-birinin ardınca su kimi içdiyim romanların möhkəm, əzmkar qəhrəmanlarımı?"*. Əlbəttə, bu suallar ritorikdir. İndi kimsədən cavab istəmir. Amma Sitarənin ilk məhəbbət kimi varlığından qaynaqlanan istəyi, arzusu asanlıqla reallaşa bilmir. Kənddə kimi tərpədirsən, onun hamısı Sitarənin bu arzusunun əlehinə gedir. Özünü ağıllı hesab edən hər kəs Sitarəni həkim kimi görmək istəyir, müəllim kimi görmək istəyir, lap pambıqçı olsun, sağıcı olsun, təki jurnalist olmasın. Bəlkə də Ulduz Qasımın bu əsərindəki qədər öz istəyinə, məramına doğru mübarizə aparan və dönməz yol seçən ikinci bir real qəhrəman tapmaq mümkün deyil. Ən azı anası da onun istəyinə qarşı bənd çəkməkdə idi.

Bilmirəm, bəlkə, bu, Sovet dövrünə aid keyfiyyətdir. Bəlkə hansısa ölkədə də belə hallar olub və yaxud da var. Amma həqiqətən Ulduzun orta məktəbi qurtardığı zamanlarda ixtisas seçmək məsələsi, demək olar ki, valideynlərdən asılı olurdu. Prokuror istəyirdi ki, övladı prokuror olsun, həkim istəyirdi ki, övladını həkim kimi görsün. Yəqin ki, müəllim də öz övladını müəllim kimi görməkdə daha əlçatan bir arzu istəyində olurdu. Amma kimsənin ağlına gəlmirdi ki, bir kolxozçunun, yəni sıradan olan bir kəndlinin övladı şərqşünas olmaq istəsin, jurnalist olmaq istəsin. Əvvələ kimsəyə sirr deyildi ki, bu yollar hər kəsin üzünə açıq olmurdu. Jurnalist olmaq istəyən abituriyentin valideyni onu qabaqcadan hazırlayırdı. Övladının yazıları çap olunurdu. Hətta imtahan götürən müəllimlərlə qabaqcadan tanışlıq yaradılırdı. Bir sözlə, hər şey qanun çərçivəsində olsa da, hər şey saxtalıqla nəfəs alırdı. Məhz Sitarə belə bir mühitin stereotiplərini qırıb, şablonlarını dağıtmaq istəyirdi.

Mən bir oxucu kimi *"Tələbə gündəliyi"*ni əvvəlcə bədii təəssürat üçün oxudum. Və əvvəlcə mənə elə gəldi ki, oxuduğum əsər sanki hissi, sentimental duyğuları əhatə edir. Bəlkə də bəzi məqamlarda *"Bədbəxt Liza"*nı xatırladır. Hansısa məqamda qərb bestsellerlərini yada salır. Amma əsəri dəyişən səhifələri təzədən oxuduqca ədəbi qəhrəmanın həyat uğrunda mübarizəsini, yeri gəldikcə cəmiyyətə qarşı dura bilmək gücünü müşahidə etdim və belə qərara gəldim ki, əslində, bu tip əsərlər zamanından asılı olmayaraq hər bir gənc üçün, xüsusilə yeniyetməlikdən başlayan insan yolu üçün xüsusi əhəmiyyət kəsb edə bilər. Bu əsərdə idealizə olunacaq əsas keyfiyyət budur ki, insan inandığı, gücünə güvəndiyi zamanlarda gərək tərəddüd etməsin.

Gənc qızın seçdiyi (daha çox sevdiyi) ixtisasa yiyələnmək istəyinə qarşı çıxan anasına dedikləri, əlbəttə, hissləri ilə, düşüncələri ilə dedikləri yəqin ki, elə dünən üçün deyil, hətta bu gün üçün də deyil, daha çox elə gələcək üçündür. Bu o deməkdir ki, hər bir gəncin mənəvi mühitində onun arzularının xəyallarının səmasında qanad çalan istəkləri var. Bu, istəklərə qarşı çıxmaq o qanadları qırmaq deməkdir. Ən azı, hər hansı bir gəncin qarşısı alınmaz duyğu ilə can atdığı məramı dağıtmaq, bu yolu kəsmək həmin gəncin varlığına nəticəsi bilinməyən zərbələr vurmaqdır. Şübhəsiz, belə zərbələr insan taleyini şikəst edir, onun varlığını dağıdıb parçalayır. Bu ona bənzəyir ki, bir gəncin sonsuz sevgisini bir heç olaraq qəbul edəsən və onu istəyinin əksinə olacaq bir məcraya yönəldəsən. Bu həmin gəncin varlığına əbədi vurulan bir zərbədir.

Sitarə anasının müqavimətini özünün düşüncələri ilə, varlığından boy göstərən etirazları ilə dağıda bilir. Ən azı onun bu daxili-mənəvi monoloquna diqqət etmək bəs edir ki, Sitarənin hansı mənəvi gücdə olduğunu biləsən, başa düşəsən: *"Ay ana, mənə de ki, yıxıl öl, ölüm qabağında. De ki, get özünü at bu böyrümüzdəki Araza, gedim atım. Amma belə söz demə. Axı bilmirəm niyə belə danışırsan? Niyə, niyə? Mən ya bu sənətin sahibi olacam, ya da oxumuram. Sabahdan gedirəm kolxoza işləməyə. İndiyə kimi bir sözünü iki eləmişəm? Yox, yox! Nə sənin, nə atamın. Harada demisiniz, orada oturmuşam. Gülmə, gülməmişəm, danışma, danışmamışam. Dərsdən bir dəqiqə gec gəlmə, gəlməmişəm. Həmişə köməkçin, buyruqçun olmuşam. Düz deyil, hə? Dinmirsən. Deməli, düzdür. İndi də qoyun ürəyim istəyəni seçim..."*. Monoloq bitir, ancaq tale döyüşü davam edir. Sitarə məramından dönməyəcəyini təkcə sözləri ilə yox, hətta bütün varlığı ilə bəyan edir. Yeri gəlsə, öz istəyi uğrunda mübarizədə indiki təbirlə desək, şəhid olmağı da qanunauyğun hesab edir. Onun etirazları əslində öz istəyindən güc alır. O, anasına izah etmək istəyir ki, yazı üçün doğulub, yazı yazmayanda onun həyatı mənasız olur. Hər hansı bir məsələni yazmaq üçün düşünəndə, düşüncələrini səfərbər edəndə yazacağı mətləbin mahiyyəti onun varlığında sanki mərmiyə çevrilir. Əgər yazmasa, bu mərmi partlayacaq onun özünü də məhv edəcək.

Bu elə bir hissdir ki, bunu yalnız yazan adamlar, yaradıcı adamlar, söz adamları başa düşə bilər.

Sitarə də varlığında sözə bağlılığını məhz bu tipli hisslərlə ifadə edir. Şübhəsiz, yenə onu bu çətinlikdən, bu dardan qurtaran onun atasının iradəsi olur. Atası təbiət etibarı ilə insana sağlam mövqedən yanaşmağı bacaran şəxsiyyətdir. Elə ona görə də o, qızının məruz qaldığı çətinlikləri öz təmkini ilə dağıda bilir.

Ulduz Qasım Sitarənin taleyini yazarkən sanki öz tale yolunu yazmış kimi görünür. Biz artıq bu barədə demişdik. Əsərdə avtobioqrafik cizgilər çoxdur. Hətta o qədər çoxdur ki, biz bunu sızıntılar adlandırmırıq. Və təsadüfi deyil ki, bu gün ədəbiyyatda avtobioqrafizm xüsusi problem kimi öyrənilməkdədir. Yəqin ki, jurnalist Sitarənin taleyi ilə üst-üstə düşən məqamları öyrənən tədqiqatçılar Ulduz Qasıma da biganə qalmayacaqlar.

Sitarənin atası son anda qətiyyət göstərir. O, qızının mənəvi mühitinin saflığına güvənir, inanır ki, Sitarə *"qızdan jurnalist olmaz"* şablonunu dağıtmaq gücündədir.

Həqiqətən, Ulduz Qasım jurnalist olmaq istəyəndə Cəbrayılda əlinə qələm götürüb yazı yazmaq istəyən qadınlar barmaqla sayılardı, ya da heç yox idi. Bu mənada Ulduz Qasımın *"Tələbə gündəliyi"* povestinin qəhrəmanı Sitarə zamanı üçün çox orijinal bir obrazdır.

Sitarə iradə adamıdır. Gənc olmasına baxmayaraq iradəsinin gücünü dərk etmək iqtidarındadır. Elə ona görə də onu bir kimsə məramından döndərə bilmir. Ona nəyin düz, nəyin səhv olduğunu demək istəyənlərin özləri belə gülünc vəziyyətə düşürlər. Əgər belə demək mümkünsə, bu yerdə əsərin daha bir hissəsi sona çatır. Yəni Sitarənin həyatının mübarizələrdə keçən ilkin mərhələsi qurtarır.

Qarşıda Sitarəni nələr gözləyir, o hansı çətinlikəri dəf edəcək? İradəsinin gücünü reallaşdıra biləcəkmi?

Əlbəttə, bunlar bizim oxucularımız üçün də ritorik suallar olsa da, cavabını gözləyən suallardır və əlbəttə, əsərin yeni səhifələrinə keçdikcə bu suallara cavab vermək imkanımız olacaq.

Ulduz Qasım *"Tələbə gündəliyi"*nin müəllifi olaraq bizim müasirimizdir. Onun ədəbi qəhrəmanı Sitarə də heç də bizdən kənarda deyil. Bir çox psixoloji sarsıntıları, gərginlikləri ilə bizə tanışdır, doğmadır. Bəzi hallarda həyatımızın şərikidir.

***(Davamı var)***